ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# İNDİ ONUN SƏSİNDƏN YOXDUR...

Martın 22-də görkəmli xanəndə Rübabə Muradovanın doğum günüdür. İndi onunla həmyaşıd olan, səhnəni bölüşən, konsertlərini müşayiət edən sənət yoldaşları, səhnədə ifasını canlı izləyən tamaşaçılar çox deyil. Amma hamı onu böyük sənətkar kimi xatırlayır....



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Bəstəkarlar hamısı istəyirdilər ki, onların mahnısını Rübabə Muradova oxusun. O isə hər mahnını bəyənməzdi, alardı, səsinə düşəni, ürəyinə yatanı seçib oxuyardı”.

Martın 22-də doğum günüdür görkəmli xanəndə Rübabə Muradovanın. İndi onunla həmyaşıd olan, səhnəni bölüşən, konsertlərini müşayiət edən sənət yoldaşları, səhnədə ifasını canlı izləyən tamaşaçılar çox deyil.

**“ONLAR SƏNƏTDƏ SÖZLƏRİNİ DEYİB GETDİLƏR”**

Tarzən, Xalq artisti Vamiq Məmmədəliyev 1961-ci ildə Rübabə Muradovanın Opera və Balet Teatrında oynadığı “Leyli və Məcnun” operasının tamaşaçısı olub: “Mən “Leyli və Məcnun” operasını zaldan böyük məhəbbətlə izlədim. Rübabə Muradova səhnədə Qulu Əsgərovla oynayırdı. Həmin tamaşalar zamanı Opera Teatrı ağzına qədər dolu olurdu. Onlar bir neçə il bu tamaşanı eyni anşlaqla oynadılar. O zaman 3-4 məşhur qadın xanəndə vardı. Onlar o dövrün ən yaxşı oxuyanları idilər. İndi o səslərdən yoxdur və bir daha olmayacaq. Onlar sənətdə sözlərini deyib getdilər...”

**"DOLDUR PİYALƏMİ ARAZDAN MƏNİM"**

Xalq artisti, mahir tar ifaçısı Ağasəlim Abdullayev xatırlayır: “Rübabə xanımla 1969-cu ildə Baba Salahovun rəhbərlik etdiyi televiziya və radionun Xalq Çalğı Alətləri Ansamblında tanış olmuşam. O zaman məni həmin ansambla konsertmeyster kimi dəvət etmişdilər. Bizim məşqlərimizə çox müğənni gəlirdi. Onlardan biri də Baba Salahovun ən sevimli xanəndəsi Rübabə Muradova idi. Baba Salahov dünyasını dəyişəndən sonra da Rübabə Muradova ansamblı tərk etmədi. Baba müəllimin ölümündən sonra – 1981-ci ildə ansamblın bədii rəhbərliyi mənə həvalə edildi. Baba müəllimdən sonra mən Rübabə xanımın bizim ansambla nə qədər sədaqətli olduğunun şahidi oldum. O, çox sədaqətli qadın idi. Mənim rəhbərliyim altında olanda da ansamblla çalışdı. Baba müəllimdən 7-8 ay sonra Rübabə xanım da dünyasını dəyişdi”. A.Abdullayev xanəndə ilə “Humayun” dəstgahını yazdığını xatırlayır: “Hazırda həmin dəstgah Qızıl Fondda qorunur. Sonra da biz Rübabə xanımla bir çox mahnılar yazdıq. Bəstəkarlar hamısı istəyirdilər ki, onların mahnısını Rübabə Muradova oxusun. O isə hər mahnını bəyənməzdi, alardı, səsinə düşəni, ürəyinə yatanı oxuyardı. İndi o mahnıların hamısı Qızıl Fondda və Dövlət Səs yazıları Arxivində saxlanılır”.

Tarzən Rübabə xanımla el şənliklərinə getdiyini də xatırlayır: “Münasibətimiz o qədər yaxşı idi ki, el şənliklərinə də birlikdə gedirdik. Bir dəfə Lənkərana toya getdik. Rübabə xanımın toyda oxumağa ehtiyacı yox idi, amma camaatın içərisində görünmək istəyirdi. İnanın, toyda stadionda olan qədər insan vardı. İnsanlar elə bil nümayişə gəlmişdilər. O zaman hər oxuyanı toylara aparmırdılar. Rübabə xanımın evində də çox məşq etmişik. Onunla radio üçün “Mirzə Hüseyn” segahını yazdıq. Rübabə xanımla qastrollara, konsertlərə getmişik. Həbsxanalarda konsertlər verirdik. O heç vaxt belə tədbirlərdən imtina etməzdi. “Dustaqlar üçün oxumaq savabdır” deyirdi”. Tarzən Rübabə xanımın içindəki Ərdəbil nisgilini də yaxşı xatırlayır: “Rübabə xanım əslən cənubi azərbaycanlı idi. Onun içində nisgil vardı. Muğam üstündə “Doldur piyaləmi Arazdan mənim”, - deyə oxuyur və gözləri dolurdu”. A.Abdullayev xanəndənin milli Opera Teatrı tarixində zəngin irs qoyduğunu deyir: “Rübabə xanım “Leyli və Məcnun”u Qulu Əsgərovla, daha sonra Arif Babayevlə oynayıb. Onun bu operada tərəf-müqabilləri çox olub. Çünki o səhnəmizin əvəzolunmaz Leylisi idi”.

Tarzən Rübabə xanımın son günlərini də xatırlayır: “Rübabə xanım xəstələnəndə ona baş çəkməyə getdim. 5 saylı xəstəxanada yatırdı. Onu görəndə elə bil dilim tutuldu. Çox arıqlamışdı. Bir müddət sonra da dünyasını dəyişdi...”

**O, “HUMAYUN”U ELƏ OXUYUB Kİ...**

”Heç bilməzdim, nə vaxtsa Rübabə xanım haqqında xatirə danışacağam”, - deyə Əməkdar artist Mirnazim Əsədullayev xatırlayır: “Mən kamança ifaçısı Baba Salahovun ansamblına gələndə 1969-cu il idi. O vaxt Rübabə xanım da ansamblla məşq etməyə gəlirdi. Tanışlığımız ansamblda yarandı. Onunla ilk konsertim 1970-ci ilin may ayında oldu. Rübabə xanımla ən böyük işimiz “Humayun” dəstgahını yazmaq oldu. Əlibaba Məmmədov dedi ki, “Humayun”u indiyə qədər belə oxuyan olmayıb. O lent yazıları yadigar qaldı.... Rübabə xanım əlçatmaz sənətkar idi. Leylini onun kimi oynayan yox idi. Bir az kövrək insan idi. Əslən Ərdəbildən idi, elə bu həsrətlə də dünyadan köçdü. Sovet dövrü olduğu üçün getməyə qoymurdular. Onun səsində bu nisgil, bu yanğı həmişə hiss olunurdu. O vaxt “Qubanov” küçəsində (indiki Zivər bəy Əhmədbəyov) “Demokratların klubu” vardı, orada məşqlər edirdik. Məmməd Salmanov da əslən cənubi azərbaycanlı olduğu üçün oraya gəlirdi. Biz hər il orada iranlıların gününü qeyd edirdik. Bəstəkar Bəxtiyar Kərimov da məşqlərə gəlirdi. Bir gün “Rübabə xanım üçün Şəhriyarın sözlərinə “Heydərbabaya salam” mahnısını yazmışam” dedi. Bu mahnını məşq etdik, gözəl də alındı. Rübabə xanım bütün konsertlərdə bu mahnını elə oxuyurdu ki, bütün zaldakılar ağlayırdı. Biz onunla qastrol səfərlərinə gedirdik. O vaxt rayonlarda “Məhsul bayramı” keçirilirdi. Camaat onu o qədər çox istəyirdi ki...”

İfaçı Rübabə xanımın xəstə olduğu günlərini kədərlə xatırlayır: “Mən bir musiqiçi kimi yox, bir oğul kimi ona qulluq elədim. Bütün konsertlərdə onun yanında idim. Xəstələnəndə ona baş çəkməyə getdik. “Qoy ayağa durum, o qədər səs yazıları edəcəm ki, qoy xalımız üçün qalsın”, - dedi. Amma daha yataqdan qalxa bilmədi...”



Vamiq Məmmədəliyev
Mirnazim Əsədullayev
Ağasəlim Abdullayev